## Riyaziyyat

1. $b<0<a$ olarsa, $\sqrt{(b-a)^2}+\sqrt{9a^2}+b$ ifadəsini sadələşdirin.
   A) $2b-4a$ B) $2b-2a$
   C) $4a$ D) $2b$
   E) $2b-3a$

2. $m$-in hansı qiymətində $\vec{a}(4;3;-5)$ *və* $\vec{b}(m;-6;10)$ vektorları paraleldir?
   A) 4 B) 3 C)-5
   D)1 E)-8

3. $\begin{cases} 2x-y=7 \\ 4x^2+y^2=37 \end{cases}$ tənliklər sistemindən $xy$ hasilini tapın.
   A) -1 B) -2 C) -3
   D) -4 E) 5

4. $\int_{-\frac{\pi}{4}}^{\frac{\pi}{4}} (1+tan^2x)\,dx$ inteqralını hesablayın.
   A) 2 B) $\frac{\sqrt{3}}{2}$ C) $\sqrt{3}$
   D) 1 E) $\frac{\sqrt{3}}{3}$

5. Trapesiyanın diaqonalı diaqonalların kəsişmə nöqtəsinə nəzərən 2:3 nisbətində iki hissəyə bölünür.Trapesiyanın kiçik oturacağı 6 sm olarsa, böyük oturacağını tapın.
   A) 9 B) 6 C) 8
   D) 12 E) 10

6. 20%-i ilə 15%-nin fərqi 12 olan ədədin 50%-ni tapın.
   A) 160 B) 150 C) 120
   D) 200 E) 180

7. Diaqonalı iti bucağının tənböləni olan bərabəryanlı trapesiyanın hündürlüyü 8 sm və kiçik oturacağı10 sm olarsa, bu trapesiyanın sahəsini tapın.
   A) 120 $sm^2$ B) 240 $sm^2$ C) 288 $sm^2$
   D) 128 $sm^2$ E) 256 $sm^2$

8. $\frac{-5}{3-x}<0$ bərabərsizliyini həll edin.
   A) (-3;0) B) (-∞;3) C) (-∞;-3)
   D) (0;-3) E) (3;+∞)

9. Çevrə daxilinə çəkilmiş dördbucaqlının bucaqlarından ikisi $70^0$ *və* $120^0$-dir. Bu dördbucaqlının kiçik bucağını tapın.
   A) $70^0$ B) $65^0$ C)$60^0$
   D) $55^0$ E) $50^0$

10. $x^2-ax+a=0$ tənliyinin iki bərabər kökü olarsa, $\frac{3a^2-12a+17}{2a^2-8a+2}$ ifadəsinin qiymətini tapın.
   A) 6 B) -4,5 C) -6
   D) -7,5 E) 8,5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BirlikTeam1

11. $\sin(2\pi-\alpha)+\cos\left(\frac{3\pi}{2}+\alpha\right)+5sin^2\alpha-1$ ifadəsinin ən böyük və ən kiçik qiymətlərinin cəmini tapın.
A) 0 B) 1 C) 2 D) 3 E) 4

12. Doğuranı 13 sm olan konusun oturacaq çevrəsinin uzunluğu $10\pi$ sm olarsa, onun həcmi neçə sm$^3$ olar?
A) $240\pi$ B) $150\pi$ C) $120\pi$
D) $100\pi$ E) $180\pi$

13. $\log_2(x-7)^2+\log_2(x-7)^4=12$ tənliyinin kökləri hasilini tapın.
A) 48 B) 24 C) 36 D) 45 E) 33

14. $a$ parametrinin hansı qiymətində $f(x)=x^4+ax^2-ax$ funksiyasının qrafikinə absisi $x_0=1$ olan nöqtədən çəkilmiş toxunan absis oxunun müsbət istiqaməti ilə $135^0$-li bucaq əmələ gətirir?
A) 0 B) -4 C) 2 D) -5 E) 1

15. $O$ çevrənin mərkəzi, $OA\perp AB\perp BC\perp CO$ düzbucaqlı, $AE=6, CD=3$ olarsa, $AB$-ni tapın.




A) 12 B) 10 C) 15
D) 17 E) 13

16. $2z+\bar{z}+1=4-i$ olarsa, $z^2$-nı tapın.
A) 1 B) $2i$ C) $-2i$ D) $-1$ E) $i$

17. Sadələşdirin: $\frac{lg^24-lg^22}{lg2}+lg12{,}5$
A) 1 B) 2 C) 3 D) 4 E) 5

18. Həndəsi silsilədə $b_1\cdot b_5\cdot b_6=64$ olarsa, $b_3\cdot b_5$ hasilini tapın.
A) 40 B) 8 C) 24
D) 32 E) 16

19. $3x^2y^nz$ birhədlisinin dərəcəsi 9 olarsa, $5xy^5z+6x^ny^3$ ikihədlisinin dərəcəsini tapın.
A) 12 B) 9 C) 11
D) 10 E) 8

20. ABC üçbucağında $\angle A=75^0$, $\angle B=45^0$, AB=$3\sqrt{3}$ olarsa, AC tərəfini tapın.
A) $2\sqrt{6}$ B) $4\sqrt{2}$ C) $6\sqrt{3}$
D) $3\sqrt{6}$ E) $3\sqrt{2}$

21. $sin^2x-3sinxcosx+2cos^2x=0$ tənliyini həll edin.
A) $\frac{\pi}{2}+\pi k; k\in Z$
B) $-arctg5+\pi k; k\in Z$
C) $arctg3+\pi k; k\in Z$
D) $-\frac{\pi}{4}+\pi k;\ arctg3+\pi n;\ \ k,n\in Z$
E) $\frac{\pi}{4}+\pi k;\ arctg2+\pi n;\ \ k,n\in Z$

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

T.me/BilikTeam1

22. $a^2 + 2ab + b^2 - c^2 = 17$ şərtini ödəyən $a, b, c$ natural ədədləri üçün $c$-ni tapın.
   A) 6   B) 11   C) 5
   D) 8   E) 2

**Açıq tipli test tapşırıqları:**

23. $\lim\limits_{x\to 0} \dfrac{\sqrt{x+4}-2}{x^2+2x} = \dfrac{1}{a}$ olarsa, $a$-nı tapın.

24. Beşbucaqlı piramidanın neçə müstəvi bucağı var?

25. Müstəvini kəsən parçanın ucları müstəvidən 4 sm və 7 sm məsafədədir.Parçanın orta nöqtəsinin bu müstəvidən olan məsafəsi neçə sm-dir?

26. $A = \{1; 3; 4; 5; 7; 8; 9\}$ çoxluğunun elementlərindən istifadə etməklə rəqəmləri təkrarlanmayan üçrəqəmli neçə cüt ədəd yazmaq olar ?

27. Uyğunluğu müəyyən edin.
   1. $f(x) = 3^{x^2+1}$
   2. $f(x) = \sqrt{x^2 - 2x}$
   3. $f(x) = \sqrt{x+10} + 2$
   a. təyin oblastı [-10;+∞)
   b. qiymətlər çoxluğu [0;+∞)
   c. qiymətlər çoxluğu [3;+∞)
   d. təyin oblastı (0;+∞)
   e. təyin oblastı (-∞;+∞)



**Situasiya**

Bağ evində tikilmiş üstü açıq hovuz oturacağının tərəfləri 4 m və 6 m, həcmi $120\text{m}^3$ olan düzbucaqlı paralelepiped şəklindədir.Hovuzun üst oturacağının təpə nöqtələri daxil olmaqla perimetri boyunca hər iki metrdən bir beşi yaşıl rəngdə olmaqla lampalar bərkidilmişdir.



28. Hovuzun içərisinə neçə $m^2$ kafel işlənmişdir?

29. Hovuzun kənarına neçə lampa bərkidilmişdir?

30. Lampalardan ikisi xarab olarsa, xarab olan lampanın hər ikisinin yaşıl olmaması hadisəsinin ehtimalını tapın.

T.me/BirlikTeam1

## Coğrafiya

31. Düzgün olan coğrafi qanunauyğunluqları müəyyən edin:
1. Geniş düzənliklər litosfer tavalarının mərkəzi hissələrində yerləşir
2. Cavan dağlıq sahələr geosinklinal qurşaqlara uyğun gəlir
3. Faylı dağlar geosinklinalın inkişafının III mərhələsinə aiddir
4. Qövsvari adalar subduksiya zonalarında yaranır
5. Dərin okean novları litosfer tavalarının ayrılma zonalarında yerləşir

A) 1, 3, 5 B) 2, 3, 5 C) 1, 3, 4
D) 1, 2, 4 E) 2, 4, 5

32. Kimya sənayesinin əsas xüsusiyyətlərinə aid ***deyil***:
A) Geniş xammal bazasına malikdir
B) Yeni və davamlı materiallar yaradır
C) Ekoloji baxımdan təmiz istehsal sahəsidir
D) Kombinələşmə imkanları böyükdür
E) Təbii xammala qənaət edir

33. Uyğunluq gözlənilmişdir.

| Çay | Qolu | Mənsəb forması |
|---|---|---|
| I. Volqa<br>II. Yenisey<br>III. Ob | 1. Kama<br>2. Anqara<br>3. Irtış<br>4. Ukayali<br>5. Darlinq | a. delta<br>b. estuari |

A) I – 2 – a; II – 4 – a; III – 3 – a
B) I – 1 – a; II – 2 – b; III – 3 – b
C) I – 2 – b; II – 1 – a; III – 4 – b
D) I – 3 – b; II – 5 – b; III – 2 – a
E) I – 2 – a; II – 3 – b; III – 5 – a

34. Doğru sıraları müəyyən edin.

| **Sıra** | **Çay** | **Əsas qida mənbəyi** | **Mənsəbinin yerləşdiyi fiziki-coğrafi rayon** |
|---|---|---|---|
| 1 | Viləşçay | Yağış | Kür-Araz |
| 2 | Araz | Qar suları | Arazboyu |
| 3 | Tərtər | Yeraltı su | Qarabağ dağları |
| 4 | Həkəri | Yeraltı su | Həkəri |
| 5 | Qusarçay | Qar və buzlaq | Samur-Dəvəçi |

A) 1, 3 B) 2, 3 C) 2, 4
D) 1, 5 E) 4, 5

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

35. İran dil qrupuna daxil olan xalqların yaşadığı inzibati rayonlar :




A) 1, 3, 6 B) 2, 3, 5 C) 1, 2, 6
D) 1, 3, 4 E) 2, 4, 5

36. Yerin Günəş ətrafındakı hərəkət vəziyyətinə əsasən Günəş şüalarının 80° bucaq altında düşdüyü enliklər arasındakı ən qısa məsafə xəritə üzərində 10 sm olarsa, xəritənin miqyasını müəyyən edin.




A) 1: 22 200 000 B) 1: 66 600 000
C) 1: 40 000 000 D) 1: 11 100 000
E) 1: 33 300 000

37. Nəqliyyatın sahəvi strukturuna əsasən uyğunluğu müəyyən edin.




Yük daşınması

*I. Avtomobil* *II. Dəmir yolu* *III. Dəniz*
A) I-1; II-3; III-2 B) I-2; II-4; III-1
C) I-3; II-5; III-1 D) I-1; II-2; III-6
E) I-4; II-5; III-3

38. Doğru sıraları müəyyən edin.

| S.N. | Boksit hasilatçıları | Boksit idxal edən ölkələr |
|---|---|---|
| 1 | Avstraliya | Yaponiya |
| 2 | Braziliya | Kanada |
| 3 | Norveç | İsrail |
| 4 | Qvineya | AFR |
| 5 | Kanada | Yamayka |
| 6 | Polşa | İndoneziya |

A) 1, 3, 6 B) 1, 2, 5 C) 1, 2, 4
D) 2, 3, 4 E) 2, 4, 5

39. Hansı çay hövzəsində dağ-çəmən, dağ-meşə, dağ-*çöl, düzənlik quru-çöl və yarımsəhra* landşaft tipləri yayılmışdır ?
A) Tərtər B) Lənkərançay
C) Əyriçay D) Naxçıvançay
E) Katexçay

40. Uyğunluğu müəyyən edin.
I- Qarışıq və enliyarpaqlı meşələr
II- Selvas
III- Tundra və meşə tundra




A) I-4; II-1; III-5 B) I-4; II-6; III-2
C) I-1; II-3; III-2 D) I-5; II-4; III-3
E) I-2; II-6; III-5

41. Respublikamızda yalnız bir dövlətlə həmsərhəd olan inzibati rayonlar:
1. Zəngilan 2. Laçın 3. Balakən
4. Şərur 5. Xaçmaz 6. Oğuz
A) 1, 3, 4 B) 2, 3, 5 C) 4, 5, 6
D) 2, 5, 6 E) 1, 2, 3

42. Ölkədəki yerli şirkətlərin ÜDM-dəki payı 20 % -dir. ÜMM –nin həcmi 30 mlrd. dollar, ölkənin xaricdəki şirkətlərinin payı isə 10 mlrd. dollar olarsa, ÜDM-nin həcmini və ölkədəki xarici şirkətlərin payının neçə mlrd. dollar olduğunu hesablayın.
A) 100 və 80 B) 60 və 20 C) 80 və 20
D) 70 və 30 E) 20 və 4

43. Horizontallarla təsvir olunmuş sxemdə A və B nöqtələri arasındakı temperatur fərqi 2,7°C-dir. C-dən D-yə axan çayın uzunluğu 240 *km* olarsa, çayın meyilliyini hesablayın.




A) 4,5 m/km B) 2,5 m/km C) 1 m/km
D) 4 m/km E) 5 m/km

44. Uyğunluğu müəyyən edin.




a. Yeni qırışıqlıq vilayəti
b. Orta qırışıqlıq vilayəti
c. Qədim qırışıqlıq vilayəti
A) 1 – a ; 2 – c ; 3 – b B) 1 – b ; 2 – a ; 3 – c
C) 1 – c ; 2 – a ; 3 – b D) 1 – b ; 2 – c ; 3 – a
E) 1 – c ; 2 – b; 3 – a

45. Ekvatorial enliklərdə alçaq təzyiq qurşağının yaranmasının başlıca səbəbi:
A) buludluluğun az olması və düz radiasiyanın üstünlüyü
B) sıx çay şəbəkəsinin mövcud olması və rütubətli ekvatorial meşələrin üstünlüyü
C) Yerin hərəkəti nəticəsində enən hava axınlarının üstünlüyü
D) daha çox yağıntı düşməsi və passat küləklərinin təsiri
E) Günəş şüalarının böyük bucaqla düşməsi və qalxan isti hava axınlarının üstünlüyü

46. Litosfer tavalarının hərəkətinin səbəbi nədir?
A) Cavan qırışıq dağlarda şaquli tektonik qalxmaların yüksək sürəti
B) Astenosferdə maddələrin yerdəyişməsi
C) Dərin okean novlarında seysmik aktivliyin yüksək olması
D) Orta okean silsilələrində rift dərələrinin genişlənməsi
E) Qədim dağlarda yenidən tektonik qalxmanın baş verməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

47. Verilmiş cədvəldə doğru sıraları müəyyən edin:

| | Mineral xammalın işarəsi | Yerləşdiyi Fiziki-coğrafi rayon | Yerləşdiyi yatağın adı |
|---|---|---|---|
| 1. |  | Vulanik yayla | Şorbulaq |
| 2. |  | Həkəri | Ağdağ |
| 3. |  | Qobustan-Abşeron | Muradxanlı |
| 4. |  | Vulkanik yayla | Vejnəli |
| 5. |  | Gəncə | Hamançay |
| 6. |  | Günnüt-Qapıcıq | Parağaçay |

A) 1, 5, 6 B) 2, 3, 4 C) 2, 4, 6
D) 1, 4, 5 E) 3, 5, 6

48. Xəritə-sxemə əsasən, cədvəldə verilən doğru sıraları müəyyən edin.




| | | |
|---|---|---|
| I | 2, 3, 5 | Monarxiya ölkələridir |
| II | 1, 2, 6 | İEÖ qrupuna daxildirlər |
| III | 3, 4, 5 | Sosialist idarəetmə sisteminə malikdir |
| IV | 1, 2, 3 | İslam dini üstünlük təşkil edir |
| V | 2, 3, 6 | Əhalinin çox hissəsi Afro-Asiya dil ailəsinə mənsubdur |
| VI | 1, 2, 4 | Qalay-volfram ehtiyatına malikdir |

A) II, IV, V B) I, II, VI C) I, IV, VI
D) I, II, IV E) II, V, VI

49. Sellüloz-kağız istehsalı müəssisələri yerləşdirilərkən əsasən hansı amillər nəzərə alınır?
A) Mebel istehlakı rayonları və metal bazaları
B) Su və enerji mənbələri
C) İri şəhərlər və ucuz işçi qüvvəsi
D) Nəqliyyat yolları və istehlak rayonları
E) Dağ-mədən rayonları və daş kömür yataqları

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

50. Verilən əlamətlər respublikamızın hansı düzənliyi üçün səciyyəvidir?
*- Hündürlüyü 2000 m-dən çoxdur*
*- Soyuq və dağ tundra iqlimi formalaşmışdır*
*- Yüksək su keçirmə qabiliyyətinə malik süxurlar səthində örtük əmələ gətirmişdir*




A) 1 B) 2 C) 3 D) 4 E) 5

51. Tokaydo meqalopolisinin əhatə etdiyi aqlomerasiyaları müəyyən edin:
A) Nyu -York, Çikaqo, Boston, Detroyt
B) Yokohama, Naqoya, Kioto, Kobe
C) Pekin, Şanxay, Los -Anceles, Banqkok
D) London, Sidney, Antverpen, Milan
E) Seul, Laqos, Cakarta, Hanoy

52. *Yura-Təbaşir, Paleogen və Neogen yaşlı süxurların geniş yayıldığı* müvafiq fiziki-coğrafi rayonlar:




A) 4,6 ; 3,4 ; 2,5 B) 4,5 ; 1,2 ; 3,6
C) 2,6 ; 1,3 ; 4,5 D) 2,5 ; 1,6 ; 3,4
E) 2,5 ; 1,4 ; 3,6

**Açıq tipli test tapşırıqları:**

53. Məntiqi ardıcıllığı təyin edin.
1. Qaraqum suvarma kanalının çəkilməsi
2. Mərkəzi Asiyada suvarma əkinçiliyi inkişaf edir
3. Dənizin (gölün) canlı aləmi kasıblaşır
4. Dənizdə (göldə) suyun duzluluğu artır
5. Amudərya və Sırdərya çaylarının aşağı axarında suyun miqdarı azalır

54. İqlim diaqramın səciyyəvi olduğu İEOÖ üçün doğru fikirləri seçin.




1. şimal yarımkürəsində yerləşir
2. seysmik zonada yerləşir
3. əkinçilik yay aylarında suvarmaya əsaslanır
4. ərazisində sahilboyu səhra zonası uzanır
5. monarxiya idarəetmə formasına malikdir
6. zəngin boksit ehtiyatına malikdir

55. Ümumi maşınqayırma sahələrinə daxil olanları seçin:
1. Cihazqayırma
2. Nəqliyyat maşınqayırması
3. Aerokosmik
4. Kənd təsərrüfatı maşınqayırması
5. Dəzgahqayırma
6. Elektrotexnika

56. Keçdiyi sahil bölgəsində humid iqlim şəraiti yaradan cərəyanları müəyyən edin:




57. Uyğunluğu müəyyən edin.
1. Özbəkistan 2. Türkiyə 3. Qazaxıstan

a. Türk dil qrupunun uyğur qoluna aiddir
b. Cezqazqan və Balxaş mis yataqları yerləşir
c. Çöl zonası mühüm taxılçılıq rayonudur
d. Alp qırışıqlığı zonasında yerləşir
e. Codyarpaqlı həmişəyaşıl meşələr və kolluqlar zonası yerləşir

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

**Situasiya**

**Sizə təqdim olunmuş situasiya mətnindən istifadə edərək 58 – 60 saylı tapşırıqları cavablandırın.**
**Nəzərə alın ki, hər tapşırıqda alınan nəticə həmin situasiya ilə bağlı növbəti tapşırıqlarda istifadə oluna bilər.**

Ərazisi təxminən 500 000 km$^2$ olan İspaniyanın əhali sayı 2025-ci ilin əvvəlində 49130 000 nəfər olmuşdur. İl ərzində doğulanlar 324 300 nəfər, ölənlər isə 447 125 nəfərdir. Bir il ərzində immiqrantların sayı 1 288 500 nəfər, emiqrantlar isə 662 300 nəfər olmuşdur.
Verilənlərə əsasən sualları cavablandırın.

58. a) Hər 1000 nəfərə düşən təbii artımı hesablayın.

b) Bu ölkə üçün demoqrafik keçid modelinin hansı mərhələsi xarakterikdir ?

59. İlin sonunda əhali sayındakı dəyişikliyi müəyyən edin (əhali sayını hesablayın).

60. İlin əvvəli üçün əhalinin orta sıxlığının təqribi qiymətini hesablayın (həll yolunu göstərməklə)

T.me/BirlikTeam1

## Tarix

61. Kirmanşah, Rəşt, Gəncə müqavilələrinin oxşar cəhətlərini müəyyən edin:
1. Səfəvi ilə Osmanlı arasında imzalandı
2. Nadir xanın fəaliyyəti dövründə imzalandı
3. İşğal edilmiş Səfəvi torpaqları geri qaytarıldı
4. II Təhmasib tərəfindən imzalandı
5. XVIII əsrin 30-cu illərində imzalandı
A) 2,5 B) 2,3,4 C) 1,3 D) 1,4,5 E) 2,4

62. Uyğunluğu müəyyən edin:




A) 1-c; 2-b,c B) 1-a,b; 2-a,b
C) 1-a,c; 2-b D) 1-a; 2-a
E) 1-c; 2-a,b

63. *O, türkmənşəli sülaləyə mənsub olub, sasanilərlə qohumluq əlaqələrinə malik idi. Xristianlıqdan imtina etmiş və zərdüştiliyi qəbul etmişdi. Qohumu Sasani şahı II Yezdigərdin vəfatından sonra o, zərdüştilikdən imtina edərək Sasani hakimiyyətindən çıxdı. Cora dərəsini (Dərbənd keçidi) tutdu, massagetləri öz tərəfinə çəkdi.*
Mətndə fəaliyyətindən bəhs edilən hökmdardan fərqli olaraq Alban hökmdarı Cavanşir:
1. Albaniya dövlətini idarə etmişdi
2. Hunlar ilə mübarizə aparmışdı
3. Mihranilər sülaləsinə mənsub idi
4. Xəzərləri məğlub etmişdi
5. Sasanilərin təzyiqi ilə hakimiyyətdən əl çəkdi
A) 1,3 B) 1,4 C) 3,5
D) 2,5 E) 3,4

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

64. Hadisə - nəticə əlaqələrinə aid uyğunluğu müəyyən edin:
A) Heysəm ibn Xalidin özünü müstəqil hakim elan etməsi – Azərbaycanın vahid dövlətin tərkibində birləşdirilməsi
B) Xilafətin mərkəzində türklərin qiyamının baş verməsi – Haşim ibn Surakanın Dərbəndin müstəqil idarə edilməsinə nail olması
C) Yusif ibn Əbu Sacın hakimiyyətə gəlməsi – Xəzər dənizində ticarət gəmilərinin üzməyə başlaması
D) Slavyanların Bərdə şəhərinə hücum etməsi – Şəddadilər dövlətinin süqut etməsi
E) Araz çayı üzərində Xudafərin körpüsünün salınması – alan yürüşlərinin qarşısının alınması

65. Xəritədə ərazisi ştirxlənmiş dövlətə aid hadisələri müəyyən edin:



1. TANAP-ın açılış mərasimi keçirilməsi
2. ATƏM-in Minsk qrupu həmsədrləri təsisatının yaradılması
3. Bakı – Tibilisi – Ceyhan boru xəttinin çəkilməsi ilə bağlı saziş imzalanması
4. 1998-ci ildə "Böyük İpək yolu" Beynəlxalq konfransının keçirilməsi
5. "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin qəbul edilməsi
A) 1,5 B) 2,3 C) 1,2
D) 1,3 E) 4,5

66. Mesopotamiyanın təbii mühiti üçün xarakterik ***deyil:***
1. Müdafiə üçün heç bir təbii maneələrin olmaması
2. Təbii ehtiyatlar, tikinti və s. zəruri materialların məhdud olması
3. Quraqlıq və çay daşqınları
4. Əkinçilik üçün yararlı münbit torpaqların olmaması
5. Tikintidə təbii daşlardan istifadə edilməsi
A) 4,5 B) 1,2 C) 2,3
D) 3,5 E) 3,4

67. Eyler – Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin:




a) II İrakli ilə mübarizə aparmışdır
b) Bir müddət kihakimiyyətlilik mövcud idi
c) "Bayat savaşı"da uğursuz oldu
d) Əfşar və Qacar sülalələri hakimiyyətdə olmuşdu
e) Təbrizə yürüş etmişdir

A) 1-b; 2-c; 3-d;4-a
B) 1-c; 2-d; 3-e;4-a
C) 1-a,c; 2-b; 3-d;4-e
D) 1-d; 2-b; 3-c,e;4-a
E) 1-e; 2-c; 3-a,b;4-d

68. XVII əsrin əvvəllərində İngiltərədə siyasi yenilik:
A) Respublika elan olunması
B) Otuzillik müharibənin başa çatması
C) Yelizavetanın fəaliyyətə başlaması
D) Aqrar inqilabın başlanması
E) Stüartlar sülaləsinin hakimiyyətə gəlməsi

69. Uyğunluğu müəyyən edin:

Osmanlı imperiyası

| **1.** XVI əsrin I yarısı | **2.** XVI əsrin II yarısı |
|---|---|
| a. Misirin ələ keçirilməsi<br>b. Təbrizin tutulması<br>c. Köprülü Mehmet paşanın fəaliyyəti | a. Kipr adasının fəth olunması<br>b. İspan donanmasının məğlub edilməsi<br>c. Durğunluq dövrünün başlanması |

A) 1-a,b; 2-a,c
B) 1-c; 2-b
C) 1-a; 2- b,c
D) 1-b; 2-a,b
E) 1-c,b; 2-c

70. Ərazisi rəqəmlər ilə işarələnmiş ərazilərdə mövcud olmuş orta əsr dövlətlərinə aid uyğunluğu müəyyən edin:




a. Ən təhlükəli rəqibi Sasani dövləti idi
b. Ərazisində VI əsrin ortalarında Slavyanlar məskunlaşmışdı
c. Roma imperatorundan sonra Qərbi Avropanı birləşdirən ilk dövlət oldu
d. Saks tayfalarına qarşı mübarizədə qalib gəldi
e. Ərəb hücumları nəticəsində süquta uğradı

A) 1-a,e;2-c,d
B) 1-c;2-a
C) 1-c,d;2- a,b
D) 1-b,c;2-d,e
E) 1-a,b;2-a,e

71. Sevr müqaviləsindən fərqli olaraq Lozanna sülh müqaviləsinə aiddir:
A) Sultan hökuməti ilə Antanta dövlətləri arasında imzalandı
B) Osmanlı ərazisində Ermənistan və Kürdüstan dövlətləri yaradılmalı idi
C) Sultan hakimiyyəti ləğv edildi
D) TBMM hökuməti müqaviləni qəbul etmədi
E) Türkiyənin müstəqilliyi və ərazi bütövlüyü tanındı

72. Hadisə və nəticə əlaqələrini tamamlayın:

| Hadisə | Nəticə |
|---|---|
| 1 | Teymurilər dövlətinin süquta uğraması |
| 2 | Qızıl Ordu dövlətində türkləşmə prosesi başa çatdı |

a. Əhməd xanın Uqra çayı sahilində toqquşmadan çəkinməsi
b. Şeybanilərin Xorasanı və Heratı ələ keçirməsi
c. Sərbədarilərin hakimiyyətinin Mavəraənnəhrə yayılması
d. Özbək xanın islam dinini rəsmi din elan etməsi

A) 1-a;2-c
B) 1-b;2-d
C) 1-b;2-c
D) 1-a;2-d
E) 1-d;2-b

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

73. Azərbaycan tarixinin XII əsrin 20-ci illəri və 60-cı illərinə aid oxşar cəhət:
A) Yeni dövlətin əsasının qoyulması
B) Slavyan hücumuna məruz qalması
C) Vahid dövlətin tərkibində birləşdirilməsi
D) Gürcü yürüşünə məruz qalması
E) Səlcuq dövləti ilə dostluq münasibətlərinin qurulması

74. Aşağıdakı bəndləri sxemə uyğunlaşdırın:




a. Böyük Britaniyaya qarşı "Qitə blokadası"na qoşuldu
b. Dekabristlər üsyanı baş verdi
c. Elzas və Lotaringiya vilayətlərini Fransadan aldı
d. Bütün Qafqazın işğalı başa çatdırıldı
e. Sənaye istehsalının həcminə görə dünyada birinci yerdə idi
A) 1-c;2-d B) 1-e;2-b,d
C) 1-a;2-b D) 1-b;2-e
E) 1-a,c;2-d,e

75. I Dünya müharibəsi illərində ABŞ üçün xarakterikdir:
A) 1918-ci ilin martında müharibədən çıxdı
B) Böyük Britaniya ilə "Atlantika xartiyası" adlanan sənəd imzaladı
C) Ticarət gəmilərinin vurulması bitərəflikdən imtina edərək Almaniyaya müharibə elan etməsinə səbəb oldu
D) Marna döyüşündə Almanların məğlub edilməsi
E) Belçikanın bitərəfliyini qorumaqla bağlı müqavilə öhdəliyi var idi

76. Strezada keçirilən konfransa aiddir:
1. Avstriyanın ərazi bütövlüyü təminat altına götürüldü
2. "Antikomitern" paktı imzalandı
3. Fransa, İngiltərə və İtaliyanın iştirakı ilə keçirildi
4. Polşanın Almaniya və SSRİ arasında bölüşdürülməsi razılaşdırıldı
A) 1,2 B) 3,4 C) 1,3
D) 2,4 E) 2,3

77. Səbəb – nəticə əlaqələrinə aid uyğun bəndi müəyyən edin:

| № | Səbəb | Nəticə |
|---|---|---|
| A) | Şimali İrlandiya katolik azlığınının vətəndaş bərabərliyi uğrunda mübarizəsi | B.Britaniyanın AİB-ə daxil olması |
| B) | Əlcəzairdə etiraz çıxışlarının baş verməsi | Fransada V Respublikanın süqutu |
| C) | Berlin divarının çəkilməsi | ABŞ-nin "Marşal planı" çərçivəsində Almaniyaya yardım göstərməsi |
| D) | Folklend böhranı | Böyük Britaniyanın beynəlxalq aləmdə siyasi dirçəlişinin nümayişi |
| E) | ABŞ qoşunlarının Vyetnamdan çıxarılması | Riçard Niksonun istefa verməyə məcbur olması |

78. 1840-cı il İnzibati – məhkəmə islahatı ilə "erməni vilayəti"nin ləğv edildiyi əraziləri müəyyən edin:




A) 1,9,10 B) 2,5 C) 6,4,7
D) 3,5 E) 4,8

79. Difai və Müsavat partiyası üçün oxşar cəhətdir:
A) Müstəqillik uğrunda mübarizə aparan müsəlman xalqlarına yardım göstərilməsi
B) Dövlət Dumasına 1906-cı il seçkilərində iştirak etmələri
C) Məhəmməd Əmin Rəsulzadə tərəfindən yaradılması
D) Bolşeviklərin təsiri altına düşməsi ilə ləğv edildi
E) Rusiya müsəlmanlarının I qurultayının təşkil edilməsi

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

80. Cədvələ əsasən doğru bəndləri müəyyən edin:

| 1. AXC-nin sosial – iqtisadi siyasəti | 2. AXC-nin mədəni quruculuq tədbirləri |
|---|---|
| a. Müsəlman korpusunun Əlahiddə Azərbaycan Korpusu adlandırılması | a. Məktəblərin milliləşdirilməsi haqqında qərar qəbul edilməsi |
| b. Dövlət bankının fəaliyyətə başlaması | b. “Müsəlman Şərqini öyrənən cəmiyyət”in yaradılması |
| c. “Taxıl ticarətinin dövlət inhisarına alınması haqqında” dekret qəbul edilməsi | c. Ərəb qrafikalı əlifbadan latın qrafikalı əlifbaya keçilməsi |

A) 1-a;2-b
B) 1-b,c;2-a,b
C) 1-c;2-a
D) 1-c;2-c
E) 1-b;2-a,b

81. II Dünya müharibəsindən sonra çəkilmiş Azərbaycan filmlərindən ***deyil:***
A) “Qızmar günəş altında”
B) “Uzaq sahillərdə”
C) “Neft və milyonlar səltənətində”
D) “Ögey ana”
E) “Axırıncı aşırım”

82. 2021-ci il Sentyabrın 27-də:
A) Suqovuşan azad edildi
B) Türkiyə - Rusiya Birgə Monitorinq Mərkəzi fəaliyyətə başladı
C) “Şuşa Bəyannaməsi” adlı tarixi sənəd imzalandı
D) Zəngilanın Ağalı kəndinə qayıdış baş tutdu
E) Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməli qoyuldu

**Açıq tipli test tapşırıqları:**

83. Xronoloji ardıcıllığı müəyyən edin:
1. Cəlaləddinə qarşı Gəncə üsyanı
2. Canı bəyin Çobani hakimiyyətinə son qoyması
3. Cəlairilərin Azərbaycanda hakimiyyətinə son qoyulması
4. Hülakülər dövlətində vahid pul sisteminin yaradılması

84. II Dünya müharibəsi illərində ABŞ və SSRİ üçün oxşar cəhətlər:
1. Şovinist siyasət yürüdülməsi
2. Birləşmiş Millətlər bəyannaməsinin imzalanması
3. Yaponiya ilə hücum etməmək haqqında müqavilə imzalanması
4. 1941-ci ildə müharibəyə qoşulmaları
5. “Üçlər paktı” adlanan müqavilənin imzalanması

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

85. Uyğunluğu müəyyən edin:
1. Kəmaləddin Behzad – Təbrizdə saray kitabxanasının rəisi
2. Həsən bəy Rumlu – “Əhsən-ət-Təvarix”
3. Fəzlullah Rəşidəddin – “Cəmi-ət-Təvarix”
4. N.Tusi – Təbrizin Rəbi-Rəşidi məhəlləsində ali mədrəsə
5. Yusif ibn Əhməd – “Əxlaqi-Nasiri”

86. Xəritədə ərazisi ulduz ilə işarələnmiş dövlətin XIX əsr tarixinə aiddir:



1. Tilzit sülhünün bağlanması
2. Sadova döyüşündə Almaniyanın məğlub edilməsi
3. “Üçlər ittifaqı”na daxil olması
4. Sənaye çevrilişinin başlanması
5. Yaponiyaya məğlub olması

87. Tarixi şəxsiyyətlərin fəaliyyətinə dair uyğunluğu müəyyən edin:
*1. Perikl*
*2. II Filipp*
*3. Pompey*
a. Qay Yuli Sezarın qüvvələri tərəfindən məğlub edildi
b. E.ə 44-cü ildə Senatda öldürüldü
c. Respublikaçılara qalib gələrək senatın səlahiyyətlərini məhdudlaşdırdı
d. E.ə IV əsrin ikinci yarısında hakimiyyətdə idi
e. Afina vətəndaşlarının idarəetmədə iştirakı genişləndi

**Sizə təqdim olunmuş mənbə əsasında tapşırıqları tarixi biliklərinizə əsasən *<u>Cavab vərəqində</u>* cavablandırın.**

*Papadan Konstantinopolun möhtəşəm İmperatoruna (Lateran Sarayı, 16 noyabr 1202).* Zara şəhərinin süqutundan bir həftə əvvəl yazılmış bu məktub, yürüşün istiqamətinin dəyişdirilməsi ilə bağlı əsas sübutlardan biri olmaqla yanaşı, Papanın Almaniyadakı mübahisəli imperiya varisliyinə dair baxışının mühüm göstəricisidir.

*"Məktubunuzu və elçilərinizi imperatorluq nüfuzunuza yaraşan bir ehtiramla qəbul etdik; həm həmin elçilərin bizə təqdim etmək istədikləri məsələləri, həm də məktubların məzmununu diqqətlə nəzərdən keçirdik. Elçiləriniz bildirdilər ki, Müqəddəs Torpağın yardımına gələn xristian ordusu sizin alihəzrətlərinizin ərazisinə hücum etməyə və xristianlara qarşı silaha sarılmağa üstünlük verdiyi üçün, onları bu niyyətlərindən çəkindirmək bizim vəzifəmizə uyğundur; belə ki, əllərini xristian qanına bulamaqla həm Tanrının qəzəbinə tuş gəlməsinlər, həm də xeyli dərəcədə zəifləyərək Məsih düşmənlərinə hücum etmək iqtidarında olmasınlar."*

88. Tarixi biliklərinizə əsasən bəhs edilən yürüş istiqamətinin hansı şəhərə doğru dəyişdirildiyini müəyyən edin:

89. Mənbədə qeyd edilən ildə başlayan yürüşün nəticələrini müəyyən edin: (azı iki nəticə)

90. Tarixi biliklərinizə əsasən mənbədə bəhs edilən yürüş istiqamətinin dəyişdirilməsinin səbəblərini müəyyən edin: (azı iki səbəb)

Kaspi Təhsil Şirkəti - Mövzu Sınaq İmtahanı

t.me/BirlikTeam1